2020.- 3-9 mart.- S.23





Emil Rasimoğlu

## Çətir tut ovuclarının üstünə

Bütün divarları da qovacam otaqdan
və atacam sobaya ayaqyalın qaranlıqları...
Qoy göy üzünə əlim çatsın,
Qoy görünsün tənhalığın fahişə bədəni,
utansın bakirə tanrılar.
...Yoruldum külqabıda küçələri yandırmaqdan,
və yoruldum qucağımdakı gecələrə boylanmaqdan...
Hər kişi vurulduğu qadına qədər diriymiş,
sonrası isə Vətən kimi yaşamaq...
Çətir tut ovuclarının üstünə
İslanır şam işığı,
ürpənir tabutdakı saatın kəfgiri...

Hələ də əlim çatmır alnımı söykədiyim pəncərəyə...
Axı ayrılıqdan gözlərimiz yox, ayaqlarımız kor oldu.
...Hələ də üşüyürəm əllərinin doğum günündə
Axı qapı açan da olmaz qapını döyən yağışa.
Saçlarını dara məktubların üstünə, bir az da ayrılaq,
bir az da...

Bilirsənmi...
İntiharların qarımadığı fəsildə
bütün ağaclar -müharibə,
bütün adamlar Tanrı şəklidi.
Quşları qanadları qoymaz intihar etməyə,
kişiləri isə özünü yandırdığı gün...
Əlvida!
Qaçıram qollarıma tərəf
Bəlkə sənlə görüşəm, qadın adam!..

## Bir güzgü yanır...

Bir güzgü yanır üzü balıqlara sarı...
və
dənizdə boğulan kim varsa əl uzadır səhra rəsmlərinə.
Göz dəyir pianinodakı barmaqlara azan səsində...
Hamı bu şəhərdə saçları ağarmış heykəl ömrüdü,
yarı yuxulu siqaret qucağıdı...

Baxdım quşların qanadına
Bütün müharibələrdə göy üzü sağ qalıb.
...axı günəş üçün nə fərqi hansı fəsildi,
Hansı ağaclara vurulur hansı yuvalar,
hansı yağışlar qarıyır hansı küçələrdə,
hansı günahlar böyüyür maestronun qollarında...

Uzaqda bir kişi tabutundan hər gün özünə yüyürməkdisə qadın,
həm də
hər gün özünü doğmaqdı edam səhnələrində.
Hər adamın alnından
bir divar uçar unutduğu birisinin ömrünə...
...Sevgi - payızın ayaqlarını qucaqlayan yarpaqlarmış, dostum!
Ört qapını, gözləri böyüyür şəkillərin
Boş otaqlar qadın məzarıdısa
ən gözəl Vətən pəncərələrin arxasıdı...